

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

*Qəzet 1921-ci ildən çıxır*

# ŞƏRQ qapısı

**Təsisçi: *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti***

Sayı: 16 (21.677)

*24 yanvar 2017-ci il, çərşənbə axşamı*

***Gündəlik ictimai-siyasi qəzet***

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## *Rəsmi xronika*



Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev yanvarın 23-də Müdafiə Nazirliyinin Abşeron rayonunun Pirəkəşkül qəsəbəsində "N" hərbi hissəsinin yeni inşa edilmiş hərbi şəhərciyinin açılışında iştirak edib.

Müdafiə naziri, general-polkovnik Zakir Həsənov Prezident, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevə raport verib.

Dövlətimizin başçısı İlham Əliyev əvvəlcə Azərbaycan Ordusunun inkişafında müstəsna xidmətləri olan ümummilli lider Heydər Əliyevin büstü önünə gül dəstəsi qoyub.

Yeni hərbi şəhərcik 42 hektar ərazidə yerləşir. Burada tikinti işləri 2014-cü ilin mayında başlanıb, ötən ilin sonunda isə yekunlaşıb. Şəhərcikdə zabit, gizir və çavuşlar üçün 9 yaşayış binası inşa edilib. Onlardan 4-ü ailəli, 5-i isə subay hərbi qulluqçular üçündür. Ərazidə ümumilikdə 13 əsgər yataqxanası tikilib. Hərbi şəhərcikdə inzibati, xidməti və texniki binalar da inşa edilib.

Ali Baş Komandan, Prezident İlham Əliyev hərbi şəhərciyin rəmzi açılışını bildirən lenti kəsib.

Hərbi şəhərcikdə yaradılan şəraitlə tanışlıqdan sonra dövlətimizin başçısı hərbi qulluqçularla görüşüb.

Ali Baş Komandan, Prezident İlham Əliyev görüşdə çıxış edib.

## "İslam Mədəniyyətinin Paytaxtı Naxçıvan-2018" loqotipinin hazırlanması haqqında

## Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin

## Sərəncamı

2009-cu ilin oktyabr ayında İslam Əməkdaşlıq Təşkilatına üzv dövlətlərin mədəniyyət nazirlərinin Bakı şəhərində keçirilən altıncı konfransında Naxçıvan şəhərinin 2018-ci il üçün İslam mədəniyyətinin paytaxtı elan olunmasına dair qərar qəbul edilmişdir. Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 2 iyun tarixli Sərəncamı ilə Naxçıvan şəhərinin 2018-ci il üçün İslam mədəniyyətinin paytaxtı elan edilməsi ilə əlaqədar Təşkilat Komitəsi yaradılmışdır. 2016-cı ildə Təşkilat Komitəsinin ilk iclası keçirilmiş və hazırlıq işlərinə başlanmışdır.

Naxçıvan şəhərinin 2018-ci il üçün İslam mədəniyyətinin paytaxtı elan olunması ilə əlaqədar loqotipin hazırlanması məqsədilə Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 5-ci maddəsinin II hissəsinin 22-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. "İslam Mədəniyyətinin Paytaxtı Naxçıvan-2018" loqotipinin hazırlanması üçün müsabiqə elan edilsin.

2. Naxçıvan Muxtar Respublikasının Mədəniyyət və Turizm Nazirliyi Naxçıvan Muxtar Respublikasının Rəssamlar Birliyi ilə birlikdə loqotipin hazırlanması üçün müsabiqənin keçirilməsini təmin etsin.

3. Bu Sərəncam imzalandığı gündən qüvvəyə minir.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri** **Vasif TALIBOV**

*Naxçıvan şəhəri, 23 yanvar 2017-ci il*

## Qarsda 20 Yanvar faciəsinin ildönümü ilə əlaqədar tədbir keçirilib



***Azərbaycan Respublikasının Türkiyənin Qars şəhərindəki Baş Konsulluğu bu şəhərdə fəaliyyət göstərən Heydər Əliyev adına Anadolu Texniki-Peşə Liseyində 20 Yanvar faciəsinin 27-ci ildönümü ilə əlaqədar anım mərasimi keçirib.***

Əvvəlcə şəhidlərimizin ruhuna "Qurani-Kərim"dən dualar oxunub.

Tədbirdə baş konsul Nuru Quliyev çıxış edərək 20 Yanvar faciəsinin başvermə səbəbləri və nəticələri barədə məlumat verib. Böyük insan itkisinə səbəb olan bu faciənin Azərbaycan xalqının dövlətçilik tarixinə qəhrəmanlıq salnaməsi kimi yazıldığını diqqətə çatdıran baş konsul qeyd edib ki, keçmiş SSRİ rəhbərliyi həmin hadisələrin əsl mahiyyətini o vaxt cidd-cəhdlə dünya ictimaiyyətindən gizlətməyə çalışırdı. Lakin həmin ağır günlərdə xalqımızla həmrəylik nümayiş etdirən ümummilli lider Heydər Əliyev həyatını təhlükə qarşısında qoyaraq Azərbaycanın Moskva şəhərindəki Daimi Nümayəndəliyinə gedərək 20 Yanvar faciəsini törədənlərin əsl simasını ifşa edib, bu cinayətin tam mahiyyətini açıqlayıb.

Sonra professor Xurşid İsayev və dosent Nəzakət Hüseynqızı çıxış edərək deyiblər ki, 1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə sovet qoşunlarının Azərbaycan xalqına qarşı törətdiyi hərbi cinayət uzun illər xalqların bərabərliyi, insan haqları, humanizm prinsipləri barədə saxta təbliğat aparan Kommunist Partiyasının əsl simasını ortaya qoyub. 20 Yanvar faciəsi təcavüzkar Ermənistanın Azərbaycana qarşı əsassız ərazi iddialarına qarşı etiraz edən xalqın azadlıq mübarizəsini boğmaq məqsədi daşıyırdı.

Mərasimdə Qars Böyükşəhər Bələdiyyəsinin sədri Murtaza Karaçanta, onun müavinləri, Ədalət və İnkişaf Partiyasının Qars vilayət təşkilatının sədri Adem Çalkın, Qafqaz Universitetinin prorektoru Selçuk Ural, digər rəsmi şəxslər, eləcə də Azərbaycanı və Türkiyəni təmsil edən ziyalılar, kütləvi informasiya vasitələrinin əməkdaşları iştirak ediblər.

**"Şərq qapısı"**

## Fiziki tərbiyə dərslərinin tədrisinə və şagirdlərin fiziki hazırlıq göstəricilərinin yüksəldilməsinə diqqət artırılır

***Məlum olduğu kimi, yanvarın 14-də Naxçıvan Muxtar Respublikası Ali Məclisində "Naxçıvan Muxtar Respublikasında bədən tərbiyəsi və idmanın hazırkı vəziyyəti və qarşıda duran vəzifələr" barədə müşavirə keçirilib. Yanvarın 21-də Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyi tərəfindən keçirilən iclasda həmin müşavirədə qarşıya qoyulan vəzifələr müzakirə olunub.***

Naxçıvan Dövlət Texniki Kollecində keçirilən iclasda təhsil naziri Məmməd Qəribov çıxış edərək bildirib ki, muxtar respublikada bədən tərbiyəsi və idmanın inkişafı diqqət mərkəzində saxlanılır. Hazırda 170-dən çox ümumtəhsil məktəbində hər cür şəraitə malik idman zalları vardır, bütün ümumtəhsil məktəblərində şahmat fənni tədris olunur. 8 şahmat məktəbinin hamısı yeni binalarda fəaliyyət göstərir, şahmatın tədrisi məqsədilə təhsil müəssisələrinə 325 ədəd elektron tədris vəsaiti və 4000-dən çox kitab verilib. Bu gün ümumtəhsil məktəblərində fiziki tərbiyə dərsləri 343 ali, 37 orta ixtisas təhsilli olmaqla, ümumilikdə, 380 ixtisaslı müəllim tərəfindən, şahmat fənni isə sertifikat almış 437 müəllim tərəfindən tədris edilir. 2016-cı ildə ali və orta ixtisas məktəblərinin bədən tərbiyəsi və idman ixtisaslarına qəbul üçün sənəd verənlərdən Naxçıvan Dövlət Universitetinə 76, Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasına 28 nəfər olmaqla, 104 məzun qəbul olunub. Bu isə gələcəkdə ümumtəhsil məktəblərinin ixtisaslı fiziki tərbiyə müəllimləri ilə tam təmin olunması üçün stimul yaradır. Böyümәkdə olan gənc nəslin fiziki sağlamlığının artırılmasında əsas rol oynayan Uşaq-gənclər idman məktəblərinin fəaliyyətinin daha da gücləndirilməsi istiqamətində görülmüş işlər nəticəsində nazirliyin tabeliyində fəaliyyət göstərən 8 Uşaq-gənclər idman məktəbinin 375 qrupuna 11 idman növü üzrə 4966 üzv qəbul edilib. Onlara idmanın sirləri 189-u ali təhsilli olmaqla, 226 məşqçi-müəllim tərəfindən öyrədilir.



Müşavirədən irəli gələn vəzifələr haqqında danışan Məmməd Qəribov bildirib ki, müşavirədə ümumtəhsil məktəblərində fiziki tərbiyə dərslərinin tədrisi səviyyəsinin yaxşılaşdırılması və idmanın kütləviliyinə nail olunması ilə bağlı muxtar respublika Təhsil Nazirliyi qarşısında çox ciddi vəzifələr qoyulub. Həmin vəzifələrin yerinə yetirilməsi məqsədilə tədbirlər planı tərtib edilib. Şagirdlərin fiziki tərbiyəyə marağının artırılması və idmanın təbliğ edilməsi məqsədilə idman, şahmat və ümumtəhsil məktəblərinin foyelərində "Məktəbimizin idman uğurları" adlı sərgilər təşkil ediləcəkdir.

Məmməd Qəribov deyib ki, istər Uşaq-gənclər idman məktəblərində, istərsə də ümumtəhsil məktəblərində fiziki tərbiyə dərsləri və idman məşğələlərinin tədrisinə, idman qurğuları və idman zallarından səmərəli istifadə olunmasına ciddi yanaşmayan məktəb rəhbərləri, fiziki tərbiyə müəllimləri vardır. Bir sıra idman müəllimlərinin və şagirdlərin dərslərdə idman formaları geyinmədikləri, fənn müəllimlərinin öz vəzifələrinin öhdəsindən layiqincə gələ bilmədikləri aşkara çıxarılıb. Bəzi məktəblərdə fiziki tərbiyə dərslərinin tədrisində və mövcud idman normativlərinin istər fiziki tərbiyə müəllimləri, istərsə də şagirdlər tərəfindən tam şəkildə yerinə yetirilməsində nöqsanlara yol verilir. Qeyd edilən nöqsanlar fiziki tərbiyə dərslərinin keyfiyyətli tədrisinə mənfi təsir göstərir. Təhsil şöbələri şahmat və idmanın inkişafı sahəsində tədbirləri daha da genişləndirməli, fiziki tərbiyə dərslərinin keyfiyyətli tədrisinə və şagirdlərin fiziki hazırlıq göstəricilərinin yüksəldilməsinə, ümumtəhsil məktəblərində idman tədbirlərinin keçirilməsinə, məktəblərarası və siniflərarası idman yarışlarının təşkilinə, şahmat dərslərinin və dərnəklərin tədrisinə diqqəti artırmalı, mövcud nöqsanların aradan qaldırılması üçün ciddi səy göstərməlidirlər.

Sonra Şahbuz Rayon Təhsil Şöbəsinin müdiri Araz Məmmədovun, Kəngərli Rayon Təhsil Şöbəsinin müdiri Əli Vəliyevin, Naxçıvan şəhərindəki Şahmat Mərkəzinin direktoru Emin Hacıyevin, Babək Rayon Uşaq-gənclər idman məktəbinin direktoru Emin Hüseynovun, Ordubad rayon Düylün kənd tam orta məktəbinin fiziki tərbiyə müəllimi Gülxar Həsənovanın, Culfa rayon Əbrəqunus kənd tam orta məktəbinin fiziki tərbiyə müəllimi Afrəddin Cəfərovun çıxışları olub.

**Səbuhi HÜSEYNOV**

# Sağlamlıq imkanları məhdud uşaqlar hərtərəfli qayğı ilə əhatə olunub

*Muxtar respublikada sağlamlıq imkanları məhdud uşaqların təhsil alması və cəmiyyətə inteqrasiyası məqsədilə mühüm tədbirlər həyata keçirilir. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2016-cı il 11 yanvar tarixli Sərəncamı ilə təsdiq edilmiş "2016-2020-ci illərdə Naxçıvan Muxtar Respublikasında sağlamlıq imkanları məhdud uşaqların təhsili və reabilitasiyası üzrə Dövlət Proqramı" bu baxımdan mühüm əhəmiyyətə malikdir.*



Muxtar respublikada bu kateqoriyadan olan uşaqların məktəbəqədər, ümumtəhsil, peşə və məktəbdənkənar təhsil müəssisələrinə cəlbi diqqətdə saxlanılmış, dövlət proqramında müəyyənləşdirilən vəzifələr yerinə yetirilmişdir. Belə ki, uşaqların məktəbəqədər təhsil müəssisələrinə cəlbi üzrə həyata keçirilən tədbirlər çərçivəsində əvvəlcə müvafiq yaşlı sağlamlıq imkanları məhdud uşaqlar haqqında məlumat bazası yaradılmışdır. Hazırda muxtar respublikada bu yaş kateqoriyasına aid olan 363 uşaq vardır. 2016-cı ildə sağlamlıq imkanları məhdud 59 uşaq məktəbəqədər təhsil müəssisələrinə, 16 uşaq ümumtəhsil məktəblərində fəaliyyət göstərən məktəbəqədər hazırlıq qruplarına, 8 uşaq Naxçıvan Şəhər Körpələr Evi və Ailələrə Dəstək Mərkəzinə, nitq qüsuru olan 20 uşaq isə Məhdud Fiziki İmkanlılar üçün Naxçıvan Regional İnformasiya Mərkəzinin defektoloji bölməsində tədrisə cəlb edilmişdir.

Məktəbəqədər təhsil müəssisələrində uşaqların fiziki və əqli inkişaflarını, habelə yaradıcılıq qabiliyyətlərini inkişaf etdirmək üçün tədrisdə müasir təlim üsulları tətbiq edilmiş, təlim-tərbiyə üzrə məsul işçilərin peşəkarlıq səviyyəsinin artırılması məqsədilə təşkil edilən kurslara 158 müəllim, metodist və tərbiyəçi cəlb edilmişdir. Həmçinin Təhsil Nazirliyi tərəfindən məktəbəqədəryaşlı sağlamlıq imkanları məhdud uşaqlar üçün 231 adda xüsusi tədris vəsaitləri və 20 adda müxtəlif mövzuda audiokitablar Məhdud Fiziki İmkanlılar üçün Naxçıvan Regional İnformasiya Mərkəzinə, Körpələr Evi və Ailələrə Dəstək Mərkəzinə və Naxçıvan şəhərində fəaliyyət göstərən uşaq bağçalarına təhvil verilmişdir.

2016-2017-ci tədris ilinin əvvəlində məktəb yaşı çatan sağlamlıq imkanları məhdud 127 uşaq qeydə alınmışdır. Tədris ilinin əvvəlində mövcud potensialları nəzərə alınaraq müvafiq kateqoriyalı 88 uşaq ümumtəhsil müəssisələrinin birinci siniflərinə cəlb edilmiş, müvafiq kateqoriyalı 273 uşaq məktəbli geyimi və məktəbli ləvazimatı ilə, həmçinin qış geyimi ilə təmin olunmuşdur. Ötən il muxtar respublikanın ümumtəhsil məktəblərində 942 sağlamlıq imkanları məhdud uşaq, Görmə Qabiliyyəti Məhdud Uşaqlar üçün Xüsusi İbtidai Məktəbdə isə 8 uşaq təhsil almışdır. Tədris ili ərzində muxtar respublikanın ümumtəhsil müəssisələrində fiziki imkanları məhdud uşaqların inklüziv tədrisə cəlbi, məktəb mühitinə tədricən uyğunlaşması məqsədilə onların tədrisdə qismən iştirakına şərait yaradılmışdır. Sağlamlıq imkanları məhdud uşaqların təhsilində mütərəqqi üsulların tətbiqi məqsədilə fənn kurikulumları üzrə tədris həyata keçirilmişdir. Hazırda sağlamlıq imkanları məhdud uşaqlardan 91-i əlaçıdır.

Tədrisə cəlb edilmiş sağlamlıq imkanları məhdud uşaqlara qarşı tolerant mühitin yaradılması məqsədilə aidiyyəti dövlət orqanları tərəfindən il ərzində şagird və müəllimlər arasında maarifləndirici söhbətlər aparılmış, bu qəbildən olan uşaqların tədrisdə iştirakını, habelə fərdi nəticələrini müəyyənləşdirmək üçün məktəblərdə psixoloqlar və valideynlərlə görüşlər keçirilmişdir.

Məhdud Fiziki İmkanlılar üçün Naxçıvan Regional İnformasiya Mərkəzində Distant Tədris Mərkəzinin istifadəyə verilməsi hərəkət qabiliyyətinin məhdudluğu səbəbindən məktəbə gedə bilməyən uşaqların təhsilə cəlbini təmin etmişdir. 2016-2017-ci tədris ilinin əvvəlində sağlamlıq imkanları məhdud 3 uşaq distant tədrisin 1-ci sinfinə qəbul edilmişdir. Hazırda Distant Tədris Mərkəzində 23 uşaq təhsil alır. Burada şagirdlərin təlim-tərbiyəsi ilə 3 müəllim məşğul olur. Bununla yanaşı, Məhdud Fiziki İmkanlılar üçün Naxçıvan Regional İnformasiya Mərkəzində eşitmə qabiliyyəti məhdud 8 uşaqdan ibarət 2 qrupda tədris davam etdirilir. İl ərzində distant tədrisə cəlb olunmuş sağlamlıq imkanları məhdud uşaqların muxtar respublikanın muzeyləri ilə keçilən 8 interaktiv dərsdə iştirakı təmin edilmişdir.

Ötən il Məhdud Fiziki İmkanlılar üçün Naxçıvan Regional İnformasiya Mərkəzində psixoloji dəstək xidməti yaradılmış, xidmətin əməkdaşları 3 dəfə Bakı şəhərinə ixtisasartırma kurslarına göndərilmişdir. İl ərzində psixoloji dəstək xidmətinə 36 uşaq cəlb edilmişdir. Diqqət zəifliyi olan və hiperaktiv uşaqlar üçün isə mərkəzdə müasir tədris vasitələri ilə təmin olunmuş təlim-bərpa otağı istifadəyə verilmiş, art terapiya kursları təşkil olunmuşdur. Bununla yanaşı sağlamlıq imkanları məhdud uşaqlarda kiçik motorikanın inkişaf etdirilməsi məqsədilə Naxçıvan Uşaq Bərpa Mərkəzində əmək terapiyası otağı istifadəyə verilmişdir.



Bu gün yuxarı siniflərdə təhsil alan sağlamlıq imkanları məhdud uşaqların peşə təhsilinə cəlbi qarşıda duran əsas vəzifələrdəndir. Dövlət proqramında bu istiqamətdə də müvafiq işlərin görülməsi nəzərdə tutulmuşdur. Ötən dövrdə ümumtəhsil məktəblərinin yuxarı sinif şagirdlərinə peşəyönümü məşğələlər keçirilmiş, əmək bazarının tələbinə uyğun peşə və ixtisaslar barədə məlumatlar verilmişdir. 2016-2017-ci tədris ilinin əvvəlində Naxçıvan Musiqi Kollecinə 2, Naxçıvan Dövlət Texniki Kollecinə 3, Naxçıvan Tibb Kollecinə isə müvafiq kateqoriyalı 5 uşaq qəbul olmuşdur. Hazırda həmin müəssisələrdə müvafiq kateqoriyalı 26 uşaq təhsil alır.

Sağlamlıq imkanları məhdud uşaqların tətil günlərini səmərəli keçirmələri üçün təşkil olunan gəzinti və ekskursiyalar da onların cəmiyyətə inteqrasiyasını sürətləndirir. Ötən il yay tətili günlərində 90 uşaq Ağbulaq İstirahət Mərkəzinə, dayaq hərəkət sistemi problemləri olan 5 uşaq Türkiyə Respublikasının Dənizli vilayətindəki Nobel Tibb Mərkəzinə, 5 uşaq isə Bakı şəhərindəki Xüsusi Qayğıya Ehtiyacı olan Uşaqlar üçün Dövlət Reabilitasiya Müəssisəsinə göndərilmişdir.

Muxtar respublikada sağlamlıq imkanları məhdud uşaqların məktəbdənkənar müəssisələrə cəlbi istiqamətində də davamlı işlər görülür. 2016-2017-ci tədris ilinin əvvəlində sağlamlıq imkanları məhdud 26 uşaq musiqi məktəblərinin 1-ci siniflərinə cəlb edilmişdir. Hazırda muxtar respublikanın musiqi məktəblərində müvafiq kateqoriyalı 123 uşaq təhsil alır. İl ərzində 48 uşaq şahmat məktəblərinə, 163 uşaq məktəbdənkənar müəssisələrin dərnəklərinə, 144 uşaq Məhdud Fiziki İmkanlılar üçün Naxçıvan Regional İnformasiya Mərkəzində fəaliyyət göstərən müvafiq xidmətlərə, 70 uşaq isə idman qruplarına cəlb edilmişdir. Bununla yanaşı, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyində xüsusi istedadı ilə fərqlənən sağlamlıq imkanları məhdud 125 uşaq barədə məlumat bazası yaradılmışdır.

Sağlamlıq imkanları məhdud uşaqlar arasında müxtəlif yarış və müsabiqələrin keçirilməsi onların asudə vaxtlarının səmərəli təşkili ilə yanaşı, istedadlarının üzə çıxarılması, əqli və fiziki inkişafı baxımından da mühüm əhəmiyyət kəsb edir. Ötən il bu kateqoriyadan olan uşaqlar arasında müxtəlif yaradıcılıq müsabiqələri, mütailə yarışları keçirilmiş, tarixi abidələrə və muzeylərə ekskursiyaları təşkil edilmiş, uşaqların ifasında tamaşa hazırlanaraq nümayiş olunmuşdur. Həmçinin bir qrup uşağın Naxçıvan şəhərində fəaliyyət göstərən "Əyləncə adası" Əyləncə və İstirahət Mərkəzində istirahətləri təşkil olunmuşdur. Qeyd olunanlarla yanaşı, Naxçıvan Muxtar Respublikası Rəssamlar Birliyinin Bəhruz Kəngərli adına Sərgi Salonunda sağlamlıq imkanları məhdud uşaqların rəsm və əl işlərindən ibarət 2 sərgi-müsabiqə təşkil edilmiş, ümumilikdə, 29 müəllifin 87 rəsm və əl işi, sağlamlıq imkanları məhdud şəxslərin və istedadlı qadınların rəsm və əl işlərindən ibarət sərgi-satışda isə bu qəbildən olan 26 uşağın 78 rəsm və əl işi nümayiş olunmuşdur.

Ötən il uşaqlar arasında müxtəlif idman tədbirləri də keçirilmiş, sağlamlıq imkanları məhdud uşaqlardan ibarət boccia və masaüstü tennis üzrə bölmələr təşkil olunmuşdur. Qeyd olunanlarla yanaşı, bədii gimnastika bölməsinin də fəaliyyəti davam etdirilmişdir. Sumqayıt şəhərində keçirilən II Uşaq Paralimpiya Oyunlarında sağlamlıq imkanları məhdud 3 uşağın iştirakı təmin olunmuş, boccia paralimpiya növü üzrə idmançılardan biri 1-ci, digəri isə 3-cü yerə layiq görülmüşdür.

Məhdud Fiziki İmkanlılar üçün Naxçıvan Regional İnformasiya Mərkəzində audio və elektron kitabxanaların zənginləşdirilməsi istiqamətində də işlər davam etdirilmişdir. İl ərzində audio kitabxana fonduna 95 audiomaterial, elektron kitabxana fonduna isə 129 yeni elektron kitab əlavə edilmişdir. Hazırda audio kitabxana fondunda 1217, elektron kitabxana fondunda 664, brayl kitabxana fondunda isə 970 kitab mövcuddur. Bununla yanaşı, Naxçıvan Muxtar Respublikası Uşaq Kitabxanasından müqavilə əsasında uşaq ədəbiyyatına dair 124 kitab təhvil alınaraq Mərkəzin kitabxanasında yerləşdirilmişdir. Görmə məhdudiyyətli şəxslər üçün nəşr olunan "Könül işığı" adlı brayl jurnal da hər ay abunəçilərə təqdim edilmişdir. Bu dövrdə kütləvi informasiya vasitələrinin imkanlarından da istifadə olunaraq maarifləndirici verilişlər hazırlanmış, qəzet məqalələri dərc olunmuşdur.

*"2016-2020-ci illərdə Naxçıvan Muxtar Respublikasında sağlamlıq imkanları məhdud uşaqların təhsili və reabilitasiyası üzrə Dövlət Proqramı" bundan sonra da uğurla icra olunacaqdır.*

**Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin mətbuat xidməti**

## Əmək pensiyalarının sığorta hissəsi artırılıb

Naxçıvan Muxtar Respublikası Dövlət Sosial Müdafiə Fondunun mətbuat xidmətindən aldığımız məlumata görə, Azərbaycan Respublikasında pensiyaçıların sosial müdafiəsini gücləndirmək məqsədilə və "Əmək pensiyaları haqqında" Azərbaycan Respublikası Qanununun 29.2-ci maddəsinə uyğun olaraq "Əmək pensiyalarının sığorta hissəsinin indeksləşdirilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 21 yanvar 2017-ci il tarixli Sərəncamına əsasən, əmək pensiyasının sığorta hissəsinin məbləği 2016-cı il üzrə istehlak qiymətləri indeksinə uyğun olaraq 2017-ci ilin 1 yanvar tarixinə 12,4 faiz artırılıb.

Həmin sərəncamın icra edilməsi məqsədilə Naxçıvan Muxtar Respublikası Dövlət Sosial Müdafiə Fondu tərəfindən muxtar respublika üzrə bütün növ əmək pensiyaçılarının pensiyalarının yenidən hesablanması məqsədilə fondun şəhər və rayon şöbələrinə müvafiq tapşırıqlar verilib. Əmək pensiyaçılarının pensiyalarının sığorta hissəsinin məbləğinin 12,4 faiz artırılması prosesinə artıq başlanılıb. Əmək pensiyalarının sığorta hissəsinin indeksləşdirilməsi pensiyanın ümumi məbləğindən baza hissəsi çıxılaraq pensiyanın sığorta hissəsinə 12,4 faiz (2016-cı il üzrə istehlak qiymətləri indeksi) əlavə edilməklə həyata keçiriləcəkdir. Fond tərəfindən hərbi qulluqçular, xüsusi rütbəli şəxslər və dövlət qulluqçusu kateqoriyasına aid olan əmək pensiyaçıları istisna olmaqla, 48353 nəfər əmək pensiyaçısının pensiyasının sığorta hissəsinə 12,4 faiz artım tətbiq olunacaqdır.

Əmək pensiyalarının sığorta hissəsində müvafiq artımların aparılması ilə yanaşı, fərdi uçot sistemində sığortaolunanların fərdi hesablarında toplanmış pensiya kapitalı məbləğlərinin də 12,4 faiz indeksləşdirilməsi aparılır.

Məlumatda o da deyilir ki, Naxçıvan Muxtar Respublikası Dövlət Sosial Müdafiə Fondunun yerli orqanları tərəfindən bütün növ əmək pensiyaları üzrə hesablanmış artımlar Azərbaycan Respublikası Prezidentinin Sərəncamına uyğun olaraq 2017-ci ilin fevral ayının pensiya ödənişində, yanvar ayının artımları da daxil olmaqla əmək pensiyaçılarının plastik bankomat kartlarına köçürüləcəkdir.

*2008-ci ildən başlayaraq respublikamızın ümumtəhsil müəssisələrində yeni təhsil proqramları (kurikulumlar) tətbiq olunur və yeni məzmun standartlarına uyğun hazırlanmış dərsliklərdən istifadə edilir.*

## IX sinif şagirdləri arasında yeni formatda sınaq-test imtahanları keçirilib

Hazırda IX sinifdə təhsil alanların məzmun standartları üzrə mənimsəmə səviyyələri və bacarıqlarının yoxlanılması yeni qiymətləndirmə vasitələrilə aparılır. Fənn kurikulumlarının tətbiqi ilə bağlı olan bütün bu yeniliklər nəzərə alınaraq, 2016-2017-ci tədris ilində ümumi orta təhsil səviyyəsi üzrə təhsil alanların biliyinin yekun qiymətləndirilməsi (attestasiyası ) yeni model əsasında həyata keçiriləcəkdir.

Yanvarın 22-də Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin təşkilatçılığı ilə "İstedad – XXI əsr" MMC tərəfindən Dövlət İmtahan Mərkəzi tərəfindən nəşr edilmiş "Abituriyent" jurnalının xüsusi buraxılışında buraxılış imtahanının keçirilməsi modelinə uyğun olaraq ölkə üzrə ilk dəfə olaraq test-sınaq imtahanı keçirilib. Naxçıvan şəhərində 14 nömrəli məktəbdə keçirilən sınaq-test imtahanında 17 ümumtəhsil məktəbinin 9-cu sinif şagirdləri və Heydər Əliyev adına Hərbi Liseyin kursantları iştirak ediblər. Muxtar respublikanın rayonlarında da 9-cu siniflər mərkəzləşdirilmiş qaydada sınaq-test imtahanı veriblər.



Muxtar respublikamızda keçirilən bu sınaq imtahanları buraxılış imtahanlarına uyğun formalaşdırılıb. Şagirdlərə buraxılış imtahanlarının keçirilmə qaydalarını aşılamaq üçün onlara ayrılmış 2 saat 30 dəqiqə ərzində Azərbaycan dilindən 10 açıqtipli, yəni cavab variant verilməyən, doğru cavabın yazı ilə ifadə olunması tələb edilən test tapşırığı, 10 qapalı tipli, yəni verilən cavab variantlarından 1 doğru cavabın müəyyənləşdirilməsi tələb edilən test tapşırığı, riyaziyyat fənnindən 10 açıqtipli olmaqla, ümumilikdə, 30 test tapşırığı təqdim edilib. Eyni zamanda könüllülük əsasında inşa (esse) yazmaq üçün şagirdlərə mövzular təqdim olunub.

**Xəbərlər şöbəsi**

## Yüksək keyfiyyətin, nümunəvi xidmətin ünvanı – “Müasir Məkan”



Naxçıvana gələn qonaqlarla gəzib-dolaşdıq. Bu qədim oğuz-türk yurdunda aparılan abadlıq-quruculuq tədbirləri, yeniliklər onlarda xoş təəssürat yaratdı. – Harada bir stəkan çay içək? – deyib üzümə baxdılar.

Nə demək istədiklərini yaxşı bildiyimdən:

– Bu qışın günü bir stəkan çaydan ötrü Ordubada gedən deyiləm. İnşallah yay fəslində gedərik. Həm qoşa çinarın kölgəsində çay içər, həm də istirahət edərik. Elə deyil? – deyib qonaqların razılığını almağa çalışdım. Düzünü deyim ki, bu razılığı almaq o qədər də asan olmadı. Çünki neçə illərdir, Naxçıvana gələndə necə olur-olsun, Ordubada gedib qoşa çinarın altında çay içən Nərimanın budəfəki təklifinə etiraz etməyim bir az qəribə göründü. Ancaq çox üz vurmadı.

– Yaxşı, sən deyən olsun, bəs onda çöl gəzintisinə çıxmaq üçün yüngülvarı qəlyanaltı haradan götürək? – deyə soruşdu.

– “Müasir Məkan”dan.

“Müasir Məkan” sözünü eşidər-eşitməz qonaqlardan biri dedi:

– Elə biz də şərtləşmişdik ki, neçə illərdir, Nərimanın Naxçıvandan bizə pay gətirdiyi, dadı damağımızdan getməyən “MM” məhsullarının istehsal edildiyi müəssisə ilə tanış olaq.

Özüm bilərəkdən maşını “Müasir Məkan”a dolayı yolla, dəmiryol vağzalı tərəfdən Tumbul kəndi istiqamətinə sürüb, yol ayrımından, yəni Hacıniyyət kəndindən geriyə döndüm. Nərimanın sevincinin həddi-hüdudu yox idi. Uşaqlıq xatirələrini təzələdi.

Yolboyu ucaldılan quruculuq ərməğanlarını, “Naxçıvan” Universiteti şəhərciyini, müxtəlif təyinatlı sənaye müəssisələrini, bir-birindən yaraşıqlı inzibati və ictimai yaşayış binalarını heyranlıqla seyr edən Nəriman:

– Uşaqlıq illərimin keçdiyi doğma Naxçıvanımı, tanınmaz dərəcədə dəyişən, müasirləşən Naxçıvanımı belə görməkdən qürur duydum. Biznes işimizlə əlaqədar dünyanın bir çox ölkələrini gəzmişik. Mübaliğəsiz deyərdim ki, zaman baxımından Naxçıvan qədər sürətlə inkişaf edən yer görməmişik.

Maşını yolun kənarına çəkdim. Bu da “Müasir Məkan”, – dedim.

Maşından düşən qonaqlar nabələd olduqlarından ətrafı diqqətlə seyr edir, heyranlıqlarını gizlətmirdilər. Görünən hər bir tikili haqqında məlumat almağa çalışırdılar.

Firma mağazaya girdik. Elə burada sahibkar Ziyafəddin Məmmədovla görüşdük. Qonaqlarla tanış etdim.

– Rusiyanın ayrı-ayrı bölgələrindən gəliblər. “MM” brendini xaricdə reklam edənlərdəndirlər. Əvvəllər sizin məhsullarınızdan dadıblar, hətta özləri ilə də aparıblar. İndi də çöl gəzintisi üçün qəlyanaltı götürmək istəyirlər, – dedim.

Söhbətimizə qoşulan Rüfət: – Mən Rusiyada yaşayıram. Ət və ət məhsulları istehsalı ilə məşğulam. Məhsulunuzun üzərində yazılmış reseptdən istifadə etdim. Ancaq “MM”in istehsal etdiyi məhsulların, xüsusilə “Naxçıvan” kolbasasının dadını, tamını aldıra bilmədim.

Ziyafəddin müəllim xeyli güldü:

– Bu dad, əlbəttə, alınmaz. Çünki o məhsul Naxçıvanda istehsal olunmur. Özü də üzərində “Naxçıvan” yazılmır. Bu məsələni həll etsəniz, elə dad həmin dad olacaq.

– Biznes sirrinizi verməmək üçün çox gözəl manevr etdiniz, – deyən Rüfət də, qonaqlar da güldülər. Sonra sahibkardan müəssisəyə baxmaq, istehsal prosesi ilə tanış olmaq üçün icazə istədilər.

– Tək sizin üçün yox, bizim məhsullarımızdan istifadə edən bütün istehlakçılar üçün istehsal prosesini izləmək imkanı yaratmışıq, – deyən sahibkar divardan asılmış televizorda istehsal prosesini izləməyi məsləhət gördü: – Əgər bu da sizi qane etməsə, əyani tanışlıq üçün şərait yaratmaq imkanımız var.

Rüfət istehsalçı marağını gizlətməyib əyani tanış olmağı seçdi. Digər qonaqlar da ona qoşuldu. Birlikdə müəssisəni gəzdik. İstehsal prosesini, son model avadanlıqları, onların tam avtomatlaşdırılmış iş prinsipini izləyən qonaqlar:

– Bu, inanılmazdır, – dedilər.

– Buna necə nail olmusunuz? Müəssisəni necə qurmusunuz? – deyə sualı sualın ardınca ünvanladılar. Qonaqları təmkinlə dinləyən Ziyafəddin Məmmədov dedi:

– Sahibkarlıq fəaliyyəti üçün münbit şərait olan yerdə hər şeyə nail olmaq mümkündür. Elə bu müəssisənin qurulması da sahibkarlığa göstərilən dövlət qayğısının bəhrəsidir. 2003-cü ildə gördüyünüz bu ərazidə kiçik bir sex qurub fəaliyyətə başladıq. Düzü, məhsullarımıza tələbatın bu qədər artacağını təsəvvür etmirdik. Təbii ki, artan tələbatın ödənilməsi, daha çox və daha keyfiyyətli məhsul istehsal etmək üçün yeni binanın inşa olunması, daha müasir texnoloji avadanlıqların alınması zərurəti yarandı. Bu isə imkanımız xaricində idi. Biz də dövlət qayğısından bəhrələndik. Müəssisəyə Sahibkarlığa Kömək Fondundan dövlət maliyyə dəstəyi göstərildi. Naxçıvan şəhərinin Babək məhəlləsində istehsal müəssisəsi üçün ayrılmış ərazidə müasir layihə əsasında istehsal sexi, xammal və hazır məhsulların saxlanılması üçün soyuducu anbar, laboratoriya, inzibati bina tikib istifadəyə verdik. 2011-ci ilin əvvəllərində fəaliyyətə başlayan müəssisədə Polşa istehsalı olan müasir texnoloji avadanlıqlar quraşdırılıb, istehsal prosesinə mərkəzləşdirilmiş qaydada nəzarət təmin edilib. Həmçinin müəssisənin daim təzə ətlə təmin olunması üçün Culfa rayonunun Gülüstan kəndi ərazisində yardımçı təsərrüfat yaratmışıq. Hazırda müəssisədə “Naxçıvan”, “Halal” və “Doğma tam” adında hisə verilmiş və bişirilmiş kolbasa, eləcə də sosiska istehsal olunur. Fəaliyyətə başlayan zaman 2-3 çeşiddə ət və ət məhsulları istehsal edilən müəssisədə hazırda 24 çeşiddə məhsul istehsal olunur. Burada xammalın qəbulundan tutmuş satışa çıxarılmasınadək texnoloji proseslərə ciddi əməl olunur: ət və hazır məhsul laborator analizdən keçirildikdən sonra istehsala və satışa buraxılır.

“MM” tanıtım nişanı ilə satışa çıxarılan məhsullar alıcılar tərəfindən rəğbətlə qarşılanır. Ayrı-ayrı ticarət şirkətlərindən alınan sifarişlər də dadı-tamı ilə seçilən bu yerli məhsula tələbatın çox olduğunu göstərir. Müəssisədə istehsal olunan məhsulların ölkəmizin digər regionlarında satışını təmin etmək məqsədilə Bakı şəhərində satış mərkəzi yaradılıb və mərkəzə əlavə işçi qüvvəsi cəlb edilməklə soyuducu kamerası olan avtomaşınlarla təmin olunub. Gələcəkdə müəssisədə istehsal edilən məhsulların xarici bazarlara çıxarılması da planlaşdırılır. Müəssisədə daxili bazarın tələbatına uyğun yeni istehsal sahələri yaradılıb. 2014-cü ildə ətin konservləşdirilməsi istehsalı sahəsi üçün Almaniyanın “ASCA” şirkətindən istehsal gücü saatda 600 ədəd 400 qramlıq tara olan, ətin konservləşdirilməsi istehsalı sahəsində istifadə olunan tara istehsalı üçün Çin Xalq Respublikasından müasir texnoloji avadanlıqlar alınıb quraşdırılıb. Yeni istehsal sahələrinin fəaliyyətə başlaması daxili bazarı keyfiyyətli yerli ərzaq məhsulları ilə təmin etməklə yanaşı, iş yerlərinin açılmasına da əlverişli şərait yaradıb.

– İstehsal sahəsi ilə yanaşı, xidmət sektorunda da öz bacarığımızı sınadıq. Novruz bayramında istehsal etdiyimiz məhsulları və hazırladığımız milli yeməkləri şənlik iştirakçılarına təqdim etdik. Rəğbətlə qarşılandı. “Naxçıvanqala” Tarix-Memarlıq Muzey Kompleksində muxtar respublikamıza gələn turistlərə və yerli ziyarətçilərə nümunəvi iaşə xidməti göstərilməsi üçün hər cür şərait yaradıldı. Müəssisənin ərazisində də qədimliklə yeniliyin harmoniyası olan quruculuq tədbirləri həyata keçirilib. Toy şənliklərinin keçirilməsi üçün müasir memarlıq üslubu ilə seçilən şadlıq sarayı, qədimliyi özündə yaşadan, xüsusi dizaynla bəzədilmiş, taxtadan qurulmuş, həsir tavanı olan istirahət guşəsi, istehsal olunan məhsulları daha münasib qiymətə alıcılara təqdim edən firma mağazası, kafe müştərilərin və şəhərimizə gələn qonaqların istifadəsinə verilib. Buyurun, siz də tanış olun, – deyən Ziyafəddin Məmmədov qonaqları kafeyə dəvət etdi.

Kafedən çıxan qonaqlara tariximizi, keçmişimizi özündə yaşadan “Naxçıvanqala” Tarix-Memarlıq Muzey Kompleksini göstərərək:

– Orada da “Müasir Məkan”ın istehsal etdiyi məhsullardan hazırlanan və müxtəlif milli yeməklərimizi turistlərə təqdim etmək imkanı olan hər cür şəraitə malik yeməkxana və çay evi fəaliyyət göstərir. Elə çayımızı da orada içək, – deyib maşına tərəf yönəldim.

Havanın qarlı, şaxtalı olmasına baxmayaraq, qonaqların təkidi ilə qala divarları üzərində çay içməli olduq. Hər kəs ecazkar mənzərənin sehrinə düşdü. Elə çay içə-içə nümunəvi xidmətin ünvanı olan bu məkandan qədimliyi saxlanılmaqla yeniləşən, müasirləşən Naxçıvanın ecazkar mənzərəsini seyr etdik.

Qala darvazasınadək hər kəs öz təəssüratlarını bölüşürdü. Ziyafəddin Məmmədov dinməz-söyləməz kənarda durub söhbətlərə qulaq asan qonaqdan adını soruşdu:

– Adım Talehdir.

– Niyə dinib-danışmırsınız?

– Mən, sadəcə, Naxçıvanın inkişafı, gözəlliyi qarşısında donub qalmışam, təəccüb içindəyəm. Blokada şəraitində bu inkişafa nail olmaq hünər istəyir. Əhsən Naxçıvana və naxçıvanlılara.

Ziyafəddin Məmmədov: – Qonaqlar nə vaxt yola düşəcək? – deyə soruşdu.

– Sabah ikinci reyslə.

– Elə də təxmin etmişdim. Onda mən qonaqları yola sala bilməyəcəyəm. Müəssisədə yeni istehsal sahəsi qurmağı planlaşdırırıq. Avadanlıqların alınması üçün sabah tezdən Türkiyəyə gedəcəyəm, – deyib maşına yaxınlaşdı. Yük hissəsindən qonaqlar üçün hazırlatdığı payı götürdü.

– Bu da məhsullarımızı xaricdə reklam edən Nərimana və onun dostları Rüfətə, Talehə “Müasir Məkan”dan Naxçıvan payı, – deyən Ziyafəddin Məmmədov qonaqlarla xudahafizləşib ayrıldı.

Biz də sahibkara, – yolun açıq, işin avand olsun, – dedik.

**Kərəm HƏSƏNOV**

*Muxtar respublikada ekoloji cəhətdən təmiz meyvə-tərəvəz məhsulları yetişdirilir. 2016-cı il fevralın 8-də qəbul olunmuş “2016-2020-ci illərdə Naxçıvan Muxtar Respublikasında meyvəçiliyin və tərəvəzçiliyin inkişafı üzrə Dövlət Proqramı” əhalinin bu məhsullara olan tələbatının yerli istehsal hesabına ödənilməsini təmin edib, tələbatdan artıq mövsümi məhsulların isə ixracına imkan yaradıb.*

## Qayğı nəticəsiz, zəhmət bəhrəsiz qalmır



2016-cı ildə əkin sahələrindən 83 min tondan çox tərəvəz, meyvə bağlarından isə 52 min tona yaxın məhsul götürülmüşdür. Təbii ki, meyvə-tərəvəz istehsalı sahəsində əldə olunan uğurların təməlində dövlət qayğısı ilə yanaşı, həm də böyük zəhmət, torpağa sevgi dayanır. Məhz bu amillər adıçəkilən sahədə gözəçarpan nailiyyətlər qazanılmasına şərait yaradıb, bazarlarımızda yerli məhsullar artıb, idxaldan asılılıq aradan qaldırılıb.

Tərəvəzçilik məhsulları istehsalı ilə məşğul olan bir ünvana üz tuturuq. Havadakı dumandan maşının pəncərəsindən ətrafı seçmək çətindir. Düşünürəm ki, qış fəslinin bu il daha soyuq keçməsi sahibkarlardan çeviklik, bacarıq tələb edir. Onlar işlərini daha diqqətlə nizamlamalı, ehtiyat tədbirlərini nəzərdə saxlamalıdırlar. Yoxsa ani bir ehtiyatsızlıqdan aylarla çəkilən zəhmət hədər gedə bilər. Bu düşüncələrlə Babək rayonunun Uzunoba kəndində fəaliyyət göstərən tərəvəzçilik təsərrüfatının qapısını açırıq.

... İstixanada ləklərin arasında gəzən, təsərrüfat sahibi Murad Cabbarova yaxınlaşıb onunla həmsöhbət oluruq. Yamyaşıl tərəvəz bitkilərini göstərərək bildirir ki, belə bir sahə yaratmaq çoxdankı arzum idi. Sahibkarlığa yaradılan şərait, göstərilən dövlət qayğısı bu arzumu gerçəkləşdirdi. 2016-cı ilin əvvəlində 3500 kvadratmetr sahədə tərəvəzçilik təsərrüfatı qura bildim.

Sahibkarla söhbətimdə bu sahənin çox zəhmət tələb etdiyinə bir daha əmin oldum. Dedi ki, təsərrüfatı qurmazdan əvvəl Türkiyəyə gedərək eyni profilli təsərrüfatlarda təcrübə keçib və elə bu gün də mütəxəssislərlə əlaqə saxlayır, həmçinin kitablardan bu sahənin sirlərinə yiyələnir. Burada yetişdirilən xiyar məhsulu “Tazəm-F1”, pomidor isə “Ayza-F1” salxım sortudur. Toxumlar Türkiyə Respublikasından gətirilib Bakı şəhərinə aparılır, orada şitil kimi yetişdirilərək istixanaya gətirilir. Naxçıvanda belə pomidor sortu yalnız bu təsərrüfatda yetişdirilir.

Ləklərin arasını gəzdikcə, kollarda olan məhsullara baxdıqca düşünürsən ki, bəli, bu gün muxtar respublikamızda sahibkarlığın inkişafına yaradılan münbit şərait bacarıqlı, zamanın nəbzini tutan insanların əl-qolunu açıb, onlara çalışmaq, işləmək, torpağa alın təri axıtmaq imkanı qazandırıb. Və bunun nəticəsində də indi bazarlarımızda keyfiyyətli yerli məhsul bolluğudur. Halbuki bir vaxtlar qış aylarında bazarlarda faraş tərəvəz məhsullarını görmək heç ağıla gəlməzdi. Bu gün isə muxtar respublikanın hər bölgəsində istixanalar yaradılıb və bütün fəsillərdə bazardan faraş tərəvəz məhsulları ala bilirik. Sahibkar deyir ki, bu gün alıcılar bazardan keyfiyyətli məhsul almağa üstünlük verir və bizim məhsul bu sarıdan artıq tanınıb. Və şübhəsiz ki, keyfiyyətli məhsul heç vaxt istehlakçının diqqətindən yayınmır.

Sözsüz ki, bunun üçün becərmə qaydalarına düzgün əməl etmək vacib şərtdir,– deyə fikrimi bildirirəm.

Sahibkar əkindən əvvəl torpağa qulluqdan başlayaraq məhsulun yığılıb qablaşdırılmasınadək aparılan prosesdən söz salır. Deyir ki, istixanada 55-60 dərəcə nəmlik olmalıdır. Odur ki, istilik artanda pəncərələr avtomatik açılır, içəridə istilik normadan aşağı düşdükdə və yaxud bayırda külək olduqda isə avtomatik örtülür. Suvarma üçün artezian quyusu qazılıb. Buradan su 120 tonluq çənə doldurulur, sonra suvarmada istifadə olunur. Ümumiyyətlə, becərmə müasir texnologiya əsasında aparılır. Bunun nəticəsidir ki, 2-3 gündən bir, ümumilikdə, 500 kiloqrama yaxın məhsul yığılacaq.

Təsərrüfatda çalışan qadınlarla da həmsöhbət oluruq. Uzunoba kənd sakinləridir. Bildirirlər ki, artıq iş yerimiz var. Bu gün təsərrüfatda 7 nəfər çalışır. Həmin insanlara iş yerini evlərinin içində onlara dövlət yaradıb. Bu isə muxtar respublikamızda əhalinin məşğulluğunun təmin edilməsinə bir dayaqdır.

...Avtomobilimiz asfalt, geniş yolla şəhərə qayıdır. Pəncərədən qarla örtülü əkin sahələrinə baxıram və düşünürəm ki, belə havada tərəvəz məhsulları yetişdirmək böyük fədakarlıq tələb edir. Sürücünün dediyi də fikrimlə üst-üstə düşür: “Halal olsun belə zəhmətkeş insanlara. Yay-qış bilmədən çalışırlar. Bolluq yaradır, muxtar respublika sakinlərinin, xüsusilə şəhər əhalisinin süfrələrini bu nemətlərlə bəzəyirlər…”

**Hafizə ƏLİYEVA**

*Milli dəyərlərimizi öyrənək və yaşadaq*

## Keçmişdən gələcəyə göndərilmiş sənət əsərləri

***Bu günlərdə yolumu saldığım ünvan məni uşaqlıq çağlarıma apardı. Kəndimizin qış günləri yadıma düşdü. İlin bu mövsümündə xalça toxumaq bir adətə çevrilmişdi. Hələ qoyunlar qırxılandan nənələr, analar yunu yuyub darayır, əyirir, kələfləyir və xalçaçı ustaların ayrı-ayrı bitkilərdən, gül-çiçəkdən, ağac qabıqlarından ipləri boyamaq üçün aldıqları müxtəlif rənglərlə boyayır, yumaq edib qış gecələrinə hazırlıq görürdülər. Kimisi qonşu kəndlərdən çeşni gətirər, kimisi də müxtəlif rəsmləri xalçalara köçürər, üstəlik, təxəyyülündə yaratdığını naxışlara çevirərdi. Beləcə, taxta hanalar, həvələr, kirkitlər növbə ilə evləri gəzər, qonşu, qohum qadınlar, qızlar birlikdə həvəslə yeni "əsərlər yazardılar". Bütün evləri naxışlı, bahar təravətli, insanların sağlamlığında əhəmiyyət kəsb edən yun xalçalar bəzəyərdi. "Yun xalçaların üzərində iməkləyən, gəzən körpənin gözləri nurlu olar" (Nəsirəddin Tusi).***



O illər xəyal etməzdim ki, bir gün Naxçıvanda Dövlət Xalça Muzeyi yaradılacaq və mən də xalçaçılıq mövzusunda yazı hazırlayacağam. Bu düşüncələr içində insan təfəkkürünün qiymətli məhsulu olan xalçalarımıza qoynunda yer vermiş muzeyi dolaşıram. Yadıma "Kitabi-Dədə Qorqud" dastanı düşür. Dastandan bir cümləni xatırlayıram: "Bayandır xan ildə bir dəfə yığnaq edər, yerə min ipək xalça döşətdirərdi". Düşünürəm ki, həmin xalçaların içərisində mütləq Naxçıvanda toxunmuş xalçalar da var. Çünki Naxçıvan xalçaları qədim dövrlərdən dünyanı gəzib. Kim bilir… Sadəcə bilirik ki, Azərbaycanın qədim şəhərlərindən biri olan Naxçıvan şəhəri hələ IX-X əsrlərdə xalça və zililəri ilə məşhur idi. Naxçıvan xalçaları Azərbaycan xalça sənətini ənənəvi naxışları və elementləri, özünəməxsus rəng çalarları ilə xeyli zənginləşdirib. Muzeydə addımlayıram… Keçələr, məfrəşlər, cecim, palaz, xalça, zili, xalılara, onların üzərindəki kodlaşdırılmış naxışlara heyranlıqla baxıram.

Bələdçi Səadət Vəliyevanın dedikləri məni düşüncələrdən ayırır:

– Muzeyimizdə 317 eksponat var. Bu eksponatlar, əsasən, 1800-cü ildən sonrakı dövrü əhatə edir. Naxçıvanda xalçalar öz bədii xüsusiyyətlərinə görə iki böyük qrupa bölünür: ornamental və süjetli xalçalar. Ornamental xalçalar çoxluq təşkil edir.

Naxçıvan məişətində kilimlərdən çox geniş istifadə edilib. Bu kilimlər istər rənginə, istərsə də bədii xüsusiyyətinə görə özünəməxsusluqları ilə fərqlənir. Mürəkkəb dolama texnikası ilə toxunan Naxçıvan zililəri şəddə və vərniyə nisbətən daha çox təkmildir.

Keçəçilik Şahbuz və Şərurun kəndlərində tarixən inkişaf etmiş sənət sahələrindən biri olub. Yayda sərinlik yaradan, qışda soyuqdan qoruyan keçədən alaçıqların, dəyələrin üstünün və yanlarının örtülməsində, yaşayış evlərinin döşənməsində, bəzədilməsində, yapıncı, papaq, dolaq, uzunboğaz çəkmə, corab, əba, qapılıq, heybə, çul, çuval, yük heyvanı üçün tərlik, palan, yəhər örtüyü, yük keçəsi hazırlanmasında və digər məişət ehtiyacları üçün geniş istifadə edilib.

Naxçıvanda xovlu xalçalara nisbətən xovsuz xalçalar daha çox toxunub. Xovsuz xalçalar xalça sənətinin ilk inkişaf dövrünü təşkil edir. Bu xalçaların kompozisiyası müxtəlif formalı naxış elementlərindən qurulub.





Naxçıvan xalçalarının bədii tərtibatında geniş yayılmış çərxi-fələk (dörd ünsür) təsvirinə e.ə. II-I minilliklərə aid maddi-mədəniyyət abidələri üzərində də təsadüf edilir. Bələdçi xalçaların birinin üzərindəki təsvirin izahını verir: – Quş qədimlərdə həsrətin, intizarın ifadəsi olmaqla yanaşı, yerlə göy arasında əlaqəni simvolizə edir. Naxçıvan xalçaları ilmələrinin sıxlığının azlığı, üzünün xovunun çoxluğu ilə seçilir. Yəni ilmə azlığı Naxçıvanın sərt iqlimi ilə əlaqəlidir. Saplar ikiqat olduğundan ilmələr az, xovu da çox olurdu.

Sonra yenidən naxışları göstərir: – Maral gəncliyin və cavanlığın, qızılgül sevginin, qarmaq elin, obanın, palıd uzunömürlülüyün rəmzi sayılır.

1800-cü ildə toxunan süjetli xalçanın qarşısında dayanırıq: – Culfa rayonunun Ərəfsə kəndində toxunub. Xan vəzir, vəkili ilə söhbət edir. Bu isə 1800-cü ildə Kükü kəndində toxunub. Xalça üzərində oğuz türklərində xüsusi simvola malik bozqurd insana qaranlıqda yolgöstərən, şər qüvvələrdən qoruyan varlıq, ayı isə təhlükənin simvolu kimi təsvir olunub. 1906-cı ildə Qarabağlar kəndində toxunan xalçada Firdovsinin "Şahnamə" poemasının motivləri əksini tapıb. Rüstəm Zal, oğlu Zöhrab bəy, orta hissədə həyat ağacı.

XIX əsrin əvvəllərinə aid miniatür xalçalarda İran şahı Fətəli şahın oğlu Abbas Mirzə təsvir olunub.

Xalçalarda yazın gəlişi, Günəş partlayışı, firavan həyatın göstəricisi olan ulduzlar, gücün rəmzi olan əjdaha, qədim İpək Yolu üzərində yerləşməyimizi, ticarət əlaqələrini göstərən dəvə karvanı təsvir edilib. Ümumiyyətlə, Naxçıvan xalçaları rəng baxımından digər bölgələrin xalçalarından xeyli fərqlidir. Açıq və tünd rənglərin təzadı Naxçıvan xalçalarına xüsusi ahəngdarlıq bəxş edir. Yəni Naxçıvanın zəngin təbii sərvətləri, ecazkar təbiəti, flora və faunası ta qədim zamanlardan xalçaçılığın təşəkkülünə rəvac verib.

Burada daha bir xalça diqqətimi çəkir. 1800-cü ildə Şərur rayonunun Axura kəndində toxunub. Üzərində sevgili butalar və küsülü butalar təsvir edilib. Bir rəvayət yadıma düşür. Rəvayətdə deyilir ki, bir gün sultan bazarı gəzə-gəzə xalı, kilim satılan dükana yetişir. Gözünə bir xalça dəyir. Satıcıdan həmin xalçanı kimin toxuduğunu və onu toxuyanın harada yaşadığını soruşur. Dükan sahibi bu xalçanı gənc bir qızın toxuduğunu və sultanı onun evinə apara biləcəyini söyləyir. Gəlib çıxırlar həmin evə. Sultan xalçanı toxuyan qızın valideynlərindən soruşur: "Niyə qızınızı sevdiyindən ayırdınız? Necə qıydınız ona?"

Valideynlər çox təəccüblə soruşurlar: bu ailə sirri idi, onu sizə kim söylədi? Sultan deyir: Bunu qızınızın toxuduğu xalçadan öyrəndim. Bu xalçanın hər ilməsi, hər naxışı ayrı düşən sevgililərin nisgilini söyləyir, fəryad edir.

Gerçəkdən də xalça onu toxuyanın minbir arzusunu, əzabını özündə cəm edir, əsrlərlə özündə saxladığı gizli mətləbləri keçmişdən gələcəyə çatdırır. Xalçalarda nəsillərin bir-birinə ötürdüyü kodlaşmış ornamentlər, xalqın təfəkkürü və itmiş tarixi gizlənir. Ədəbiyyatşünas-tənqidçi, professor Qurban Bayramov bu mənada, məqalələrinin birində haqlı olaraq qeyd edir: "Əgər bu gün qədim xalçaların üzərindəki ornamentləri insanlar oxuyub başa düşsəydi, tariximizə daha dərindən bağlanardılar…"

Qədim oğuzların həyat tərzində xalçaçılığın əsas sənətlərdən biri olması "Qurani-Kərim"in "Ər-Rəhman" surəsindəki ayəsində də var: "Onlar yaşıl balışlara, incə ilməli, gözəl naxışlı xovlu xalılara söykənmiş olacaqlar…" Bu, bir daha onu göstərir ki, xalça sənəti lazımlı sənətlərdən biridir. Hətta bu gün də çoxları belə hesab edirlər ki, xalça sənətinin himayəçiləri peyğəmbərlərdir. Çünki İbrahim Peyğəmbər Allah yolunda oğlunu qurban kəsərkən Tanrı bu qurbanı qoyun qurbanı ilə əvəz edir. Xalça isə bu heyvanın yunundan toxunur. Nağıllarımızdakı "uçan xalça" da müqəddəslik rəmzi deyilmi? Elə yazıçı Mir Cəlal Paşayev "Bir gəncin manifesti" əsərində ehtiyac içində boğulan Sona ananın "İtə ataram, yada satmaram", – deməsi ilə xalçamızın müqəddəsliyinə, milli dəyər və tarixi olmasına möhür vurur. Amma bu da faktdır ki, keçmiş Sovet hakimiyyəti dövründə bir çox qədim xalçalarımız düşmən əlinə keçdi. Bu gün dünyada ermənilərin adından nümayiş etdirilən ən qədim xalçaların məhz Naxçıvan xalçaları olduğuna heç bir şübhə yoxdur. Gəlib kəndlərimizdən bir qədim xalçanı iki və ya üç təzə xalça ilə dəyişdirən hiyləgər ermənilər bəzi qədim xalçalarımızı mənimsəməyə nail oldular. Və onlar qalsaydı, indi bu muzeydə daha çox eksponat saxlanardı...

Qazandığımız müstəqillik milli dəyərlərimizi də özümüzə qaytardı. Naxçıvan xalçaçılıq sənəti öz layiqli qiymətini aldı.

Naxçıvan xalçaçılıq məktəbinin bərpası və öyrənilməsi üçün 1998-ci ildə yaradılan və 2010-cu ildə yeni bina ilə təmin olunan Naxçıvan Dövlət Xalça Muzeyi bunun ifadəsidir. Naxçıvan xalçaçılığına yüksək qiymət verən Ali Məclisin Sədri deyib: ***"Xalçaçılıq tətbiqi sənətimizin elə bir sahəsidir ki, burada xalqımızın zəngin mənəvi aləmi, eləcə də həyat fəlsəfəsinə xas olan xüsusiyyətlər öz əksini tapmışdır".***

Hələ uzaq keçmişlərdə sənətkarlığın mühüm sahələrindən birinə çevrilən Naxçıvan xalçaçılığına göstərilən qayğı bu gün zəngin koloriti, təkrarsız naxışları və orijinal kompozisiyaları ilə seçilən Naxçıvan xalçaçılıq məktəbinin tarixinə əlamətdar səhifə kimi yazılır. "Naxçıvan xalçaçıları" kitabının və "Azərbaycan xalçaları: Naxçıvan qrupu" jurnalının çap olunması, "Naxçıvan xalçaları" sənədli filminin hazırlanması, Naxçıvan Dövlət Xalça Muzeyinin internet saytının yaradılması bu sahəyə göstərilən böyük qayğının nəticəsidir. Odur ki, bu gün Naxçıvan Dövlət Xalça Muzeyi mədəni mərkəzə çevrilib.

Bəli, qürurla deyə bilərik ki, bizim elin dürlü-dürlü xalçaları var. Hərəsinin də öz naxışı, öz gözəlliyi: Şərur xalçası, Şahbuz xalçası, Ordubad xalçası, Culfa xalçası, Kəngərli xalçası…

Tanınmış filoloq, professor Kamil Vəliyev yazır ki, xalça mənim üçün keçmişdən gələcəyə göndərilmiş rəngli məktublardır. Onu yazanda bütün yaşlar və bütün zamanlar üçün yazıblar…

*Bəli, xalça sənətdir. Xalça elmdir. Xalça həm də yazı sənətidir, mədəniyyət daşıyan böyük bir dəvə karvanıdır, – desəm, yəqin, daha doğru olar. Çünki işarələrin, naxışların, butaların, boyaların dilində söz və cümlə görəndə mətn aramaq, əhvalat axtarmaq, genetik kodun romanını oxumaq arzusunu boğa bilmirsən…*

✍ **Hafizə ƏLİYEVA**

## Ötən ilin nəticələri müzakirə edilib



Naxçıvan Muxtar Respublikası Yüngül Atletika Federasiyası 2016-cı ilin yekunları və cari ildə qarşıda duran vəzifələr mövzusunda yekun iclas keçirib. İclası giriş sözü ilə açan federasiyanın sədri Rövşən Məmmədov bildirib ki, bu gün Naxçıvan Muxtar Respublikasında bütün sahələrə olduğu kimi, bədən tərbiyəsi və idmanın inkişafına da xüsusi diqqət yetirilir. Hər il istifadəyə verilən yeni quruculuq obyektləri arasında idman müəssisələri üçün binalar da yer alır. 2002-ci ildən idman federasiyalarının yaradılması muxtar respublikada idmanın inkişafına öz töhfəsini verib. Bu federasiyalardan biri də Yüngül Atletika Federasiyasıdır. Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyi ilə sıx əməkdaşlıq şəraitində hər ilin əvvəlində birlikdə hazırlanan və təsdiq edilən təqvim planına uyğun olaraq nəzərdə tutulan bütün idman yarışlarının hazırlanmasına və keçirilməsinə nail olunur. Hazırda Yüngül Atletika Federasiyasının nəzdində 2 klub və 7 rayon bölməsində fəaliyyət göstərən 64 qrupda 682 idmançı məşqlərdə iştirak edir. Bunlardan 280-i qız, 402-si isə oğlanlardır. Klub və bölmələrdə idmançılarla federasiyadan aylıq əməkhaqqı alan 11 məşqçi müəllim məşğul olur.

Sonra çıxış edən federasiyanın sədr müavini İntiqam Rəhimov 2016-cı ildə təşkil edilən yarışlar barədə məlumat verib. Bildirilib ki, geridə qoyduğumuz il ərzində federasiya tərəfindən 29 muxtar respublika əhəmiyyətli yarış keçirilib. Yarışlarda 2647 nəfər gənc oğlan və qız iştirak edib.

Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyi Aparatının rəhbəri Canməmməd Canməmmədov çıxışında son illər muxtar respublikada idmanın kütləviliyinin təmin olunması istiqamətində görülən işlərdən danışıb. Sonda iclas iştirakçıları ilə 2017-ci ildə qarşıda duran məsələlər müzakirə edilib.

***

***Naxçıvan Muxtar Respublikası Boks Federasiyasının da 2016-cı ilin yekunlarına və 2017-ci ildə qarşıda duran vəzifələrə həsr olunan iclası keçirilib.***

İclası Boks Federasiyasının sədr müavini Məmmədcəfər Əliyev açaraq federasiyanın 2016-cı il ərzində gördüyü işlər, əldə etdiyi nailiyyətlər və qarşıda duran vəzifələr haqqında məlumat verib.

Sonra federasiyanın Kəngərli rayon bölməsinin məşqçi-müəllimi Elşən Qubuşov, Ordubad rayon bölməsinin məşqçi-müəllimi Müzəffər Həbibov, Şərur rayon bölməsinin məşqçi-müəllimi Rasim İsgəndərov çıxış ediblər.

Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyi Aparatının rəhbəri Canməmməd Canməmmədov çıxışında Naxçıvan Muxtar Respublikasının Ali Məclisində "Naxçıvan Muxtar Respublikasında bədən tərbiyəsinin hazırkı vəziyyəti və qarşıda duran vəzifələr" mövzusunda keçirilmiş müşavirədə verilmiş tapşırıqlarla bağlı iclas iştirakçılarını məlumatlandırıb.

✍ **Ceyhun MƏMMƏDOV**

***İtmişdir***

Naxçıvan şəhəri, M.Mirişli küçəsi, ev 4-də yaşayan Həşimov Sahib Səməd oğlunun adına olan 1929 inventar nömrəli texniki pasport itdiyindən etibarsız sayılır.

* * *

Naxçıvan şəhəri, Xətai məhəlləsi 19, ev 26-da yaşayan Məhərrəmova Fatma Orucqulu qızının adına olan evin 16339 inventar nömrəli texniki pasportu və 0036194 nömrəli çıxarış itdiyindən etibarsız sayılır.


**ŞƏRQ qapısı**

Baş redaktor: TURAL SƏFƏROV

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.

Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Səbuhi Hüseynov

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.

Tiraj: 1000. Sifariş № 65